AZERBAIJAN
INTERNATIONAL



**Kitablarımızı Yandırdıqları Gün**
**Asəf Rüstəmov**

Mənbə: Azerbaijan İnternational jurnali – Aİ 7.3 (Autumn 1999)
© Azerbaijan International

Asəf Rüstəmov uşaq olarkən televiziya və radio olmadığından o kitab oxumağı çox sevərdi. Lakin bir gün xəbər gəldi ki, onların kəndində bütün kitablar yandırılmalıdır. 70 il əvvəl baş verməsinə baxmayaraq Asəf bu hadisəni hələ də unuda bilmir.

Əsas mahiyyət bundan ibarət idi ki, onların kəndindəki kitablar ölkənin yeni başçılarının xoşlamadığı əlifbada, həmin ərazidə təxminən 1200 ildən çox işlənən ərəb əlifbasında yazılmışdı.

Təsəvvür et ki, yeni əlifba öyrənməli və köhnəni unutmalısan! Üstəlik sənin sevimli kitabların bəzi adamların səhv hesab etdiyi əlifbada yazıldığından yandırılır.

1928-ci ilin iyul ayı idi. 10 yaşım vardı və beşinci sinfi təzəcə bitirmişdim. Onda Azərbaycanda Qafqaz dağlarının hündürlüklərində yerləşən Lahıcda yaşayırdıq.

Hətta bu gün dağ yollarını keçərək Lahıca getmək çox çətindir. Qarlı, yağışlı qış aylarında ora hətta cip markalı maşınla yaxud ağır maşınla getmək belə çox təhlükəlidir. Dar palçıqlı yol dağın kənarı ilə uzanır. Ehtiyatlı olmaq lazımdır ki, yolun açıq kənarına çox yaxınlaşmayasan, çünki lap aşağıda çay axır. Sürücünü dağın kənarından aşmaq təhlükəsindən mühafizə edən heç bir şey yoxdur.

Xatirimdədir, uşaqlıqda kəndimizə qonaq gələndə çox sevinərdik. Bir gün balkonda oturmuşdum, gördüm ki, bir dəstə adam at üstündə dördnalla çaparaq gəlir. Heç kim onların nə istədiyini bilmirdi. Hökumət başçıları olduqlarını öyrəndik.

Onlar bizə sözləri olduğundan kəndin meydanına yığışmamızı istədilər. "Hamı kitablarını gətirsin və kəndin ortasındakı qalağa göksün. Evinizdəki bütün kitabları gətirin. Gizlətməyə cəhd göstərməyin. Kitabları gizlətdiyinizi tapsaq sizi həbs edəcəyik. Saat beşə qədər bütün kitablarınızı gətirin. Sonra tonqal qalayıb hamısını yandıracağıq."

Qulaqlarımıza inana bilmədik. Nə? Kitablarımızı yandırmaq? Biz kitablarımızı sevirdik. Axı niyə yandıraq?

Azərbaycan indiki kimi azad deyildi. Bizi idarə edən yeni hökumət bizim yeni əlifbada yazılmış kitabları oxumamızı istəyirdi. Müqəddəs kitabımız Quran ərəb əlifbasında yazıldığından bu əlifbada mütaliə etməmizi istəmirdilər. Biblya xristianların, Tövrat yəhudilərin olduğu kimi Quran da müsəlmanların müqəddəs kitabıdır. Hökumət Quran oxuyaraq dini adətlərimizi davam etdirməmizi istəmirdi. Daha Allaha inanmamızı istəmirdirlər. Lakin Qurandan başqa digər kitablarımız da ərəb əlifbasında yazılmışdı. Ərəb əlifbasını 1200 ildir ki, işlədirdik. Şer kitablarımız, ədəbi, elmi kitablarımız vardı…, lakin görünür bunun heç bir fərqi yox idi, hamısını yandırmalı idik.

Camaat etiraz etməyə cürət etmirdi. Hamı gözləri yaşlı kitablarını kəndin ortasındakı az qala iki yük maşınının daşıyacağı qalağa atdı. Ordakı kitabların sayı 1000-dən çox olardı.

Başa düşə bilmirdim ki, niyə kimsə bizim kitablarımızı yandırmaq eşqindədir. Kitab dükanlarından uzaqda yaşadığımızdan təzə kitabları çox çətinliklə əldə edirdik. Televizorumuz, radiomuz yox idi. Yenilikləri öyrənmək üçün kitab oxumalı idik. Onlarsız nə edəcəkdik. Kitab gizlətməyin çox təhlükəli olduğuna baxmayaraq sonralar öyrəndim ki, bəziləri gələcəkdə oxumaq üçün kitablarını basdırmışdılar.

Bu dəhşətli faciə Jozef Stalin ölkə başçısı olduğu zaman baş vermişdi. O ölkəni 1924-cü ildən 1953-cü ilə, ömrünün sonuna qədər idarə etdi. Əksəriyyət onu əsrin ən qəddar hökmdarlarından biri hesab edir. Sovet İttifaqının başçısı olandan o, insanlarda Allaha inamı öldürmək üçün əlindən gələni etdi. Hətta kilsə və məscidləri dağıtdırdı  ki, insanlar birgə ibadət edə bilməsinlər.

Stalin yaxud onun davamçıları kimisə xoşlamadıqları zaman həmin şəxsi evindən çox-çox uzaqlara həbsə göndərirdilər. Əksər hallarda həmin adam birdəfəlik yoxa çıxardı. Adamlar qorxu içində idilər. Heç kim bu yolla öldürülənlərin dəqiq sayını bilmir.

Sonralar öyrəndim ki, ərəb əlifbasında yazılmış kitablar yalnız bizim kənddə yandırılmamışdı. Bu bütün Azərbaycanda və ərəb əlifbasında  kitabları olan bütün qonşu ölkələrdə – Qazağıstan, Türkmənistan, Özbəkistan, Tacikistan, Qırğızıstanda da baş vermişdi.

Kitab yandırmaq çox dəhşətli bir şeydir, uşaqları, onların nəvə və nəticələri ilə birlikdə məhv etməyəbənzəyir. Kitabları yandırmaq o deməkdir ki, indiyə qədər öyrənilən və

qələmə alınanları itirirsən və gələcək nəsilə ötürə bilmirsən. Övladlarımız hər şeyi təzədən başlamalıdırlar. Çox dəhşətli faciədir.

**Yenidən Yandırma**

II Dünya Müharibəsində əsgər olmuşam. Geri qayıdanda vətənimdə hədsiz çətinliklə qarşılaşdıq. Əhali kasıbçılıq içində yaşayırdı və iş tapa bilmədiyi üçün əvvələr gizlədiyi kitabları satmağa başlamışdı. Kitabı sevdiyimdən və ərəb əlifbasında oxuya bildiyimdən imkanım çatan qədər çox kitab aldım. Bu təxminən 1949-cu il idi.

Sevimli kitablarım 100-lərlə yaşı olan tibbə aid kitablar idi. Dünyada öz tibbi fikirlərini kağız üzərinə köçürən ilk həkimlərdən biri olmuş İbn Sinanın (11-ci əsr) əlyazmasından ibarət kitabım var idi. O dövrdə ərəb əlifbası bütün ətraf ərazilərdə işlədilirdi.

Bu kitabları topladıqdan sonra bəlaya düçar oldum. Köhnə dostlarımdan biri mənə dedi ki, gizli polis - KQB casusu məni izləyirmiş. Həmin vaxtlar KQB casusları hökumətin xoşlamadığı şeyləri aşkar etmək üçün hamını güdürdü. “Onlar sənin evini güdürlər. Kitabları heç yerə apara bilməzsən. Yaxşısı budur onları yandır yoxsa kimisə göndərəcəklər” – deyə dostum xəbərdarlıq etdi.

Beləliklə həyatımda ikinci dəfə ən çox sevdiyim şeyi - kitablarımı yandırmalı oldum. Əl-əl gəzdiyim o nadir tibbi kitablar məhv edilməli idi. Başqa yolum yox idi. Ya kitablarımı yandırmalı ya da həbsdə çürüməli idim. Beləliklə həyat yoldaşım və mən bu qiymətli kitabları buxarıda yandırmalı olduq. Çox qəmgin idik. Alov qalxıb kitabları sardıqca, gözümüzdən yaş damlaları süzülürdü.

Bir çox tibbi bilik o kitablarda birdəfəlik itdi. Azərbaycanlılar 400-ə qədər dərman bitkisi tanıyırdılar. İnsanlar yarpaqları, gövdələri, çiçəkləri, kök və çəyirdəkləri müxtəlif xəstəlikləri sağaltmaq üçün necə istifadə etməyi bilirdilər. Bu gün xəstəlik zamanı xeyirli olan ölkəmizdə bitən yalnız 50 bitkini tanıyırıq. Həmin vaxt yandırdığımız kitablarda itən bilgiləri nə vaxtsa bərpa edəcəyimizə inanmıram. O, çox dəhşətli bir cinayət idi və bundan bir çox il sonra gələcək nəsillər belə ondan əzab çəkəcəklər.

Müsahibəni 1995-ci ildə Asəf Rüstəmovdan onun Azərbaycanda otlarla müalicənin tarixinə aid işi ilə bağlı Azerbaijan İnternational jurnalının redaktoru Betti Bleyer almışdır. Məqalənin hazırlanmasında Aynur Hacıyeva, Mərcan Abadi və Jalə Qəribova da iştirak etmişlər.

---

Tərcümə: Aynurə Hüseynova
Yoxladı: Gülnar Aydəmirova
Redaktə etdi və veb üçün hazırladı: Aynurə Hüseynova